UOT 94.(479.24)
DOI: 10.30546/3006-0346.2024.5.83.041

# NADİR ŞAH ƏFŞAR İMPERİYASI-OSMANLI MÜHARİBƏLƏRİNİN ÖYRƏNİLMƏSİNDƏ "OSMANLI-İRAN-RUS İLİŞKİLERİNE AİT İKİ KAYNAK" ƏSƏRİ MƏNBƏ KİMİ

**SƏBİNƏ ALIYEVA**
*Bakı Dövlət Universitetinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasının əyani doktorantı*

*E-mail: sabinalyeva@mail.ru*
*https://orcid.org/0009-0005-3120-2830*

Osmanlı imperiyası ilə Azərbaycan ərazisində mövcud olmuş bir-birini əvəz edən türk dövlətləri Ağqoyunlular, Səfəvilər və daha sonra Əfşarlar dinc qonşuluq münasibətlərindən çox savaşları ilə tarix səhifələrinə yazılmışlar. İki müsəlman türk dövlətlərinin müharibələrin sonunda isə qalib tərəf Avropa, yəni xristian dövlətləri olmuşdur. Çünki onlar Osmanlının Qafqazda başının qarışmasını Avropadan uzaq durmasını istəyirdilər. Türkiyə tarixşünaslığına baxdığımız zaman Nadir şah Əfşar Osmanlı münasibətləri ilə əlaqəli nə qədər əsərlər yazılmışdır. Lakin əsərlərin ən mənfi tərəfi Nadir şah Əfşarın İran hökmdarı, yaratdığı Əfşar imperiyasının isə İran dövləti adlandırılmasıdır. Çox nadir hallarda türk müəlliflər Səfəvilər və ya Əfşarlar haqqında türk dövləti, hökmdarları ilə bağlı isə türk hökmdar deyə bəhs edirlər.

Nadir şah Əfşar imperiyası-Osmanlı müharibələrindən bəhs edən əsərlər sırasında 2012-ci ildə Mehmet Yaşar Ertaş tərəfindən nəşrə hazırlanan Sırrı Efendinin "Risaletüt-Tarihi Nadir Şah", Abdurrahman Ateş "Nadir şah döneminde Osmanlı-İran siyasi ilişkileri (1720-1747)", Yılmaz Karadeniz "İran tarihi (1700-1925)", Uğur Kurtaran "Yeni Kaynakların ışığında Sultan I. Mahmud dönemi Osmanlı-İran ilişkileri (1731-1747)", Adnan Adıgüzel və Alper Yıldırım "I. Mahmud dönemi (1730-1754) Osmanlı-İran ilişkileri" kimi əsərlərin adların çəkə bilərik. Hər bir əsərin adından da göründüyü kimi Səfəvilər və Əfşarlar dövləti İran dövləti adlandırılır.

Nadir şah Əfşar imperiyası-Osmanlı müharibələrindən bəhs edən mühüm mənbələrdən biri də "Osmanlı-İran-Rus ilişkilerine ait iki kaynak" adlı əsərdir. Əsər iki mənbənin türk dilinə tərcüməsini ehtiva edir. Bunlardan biri "I. Petros di Sarkis Gilantezin Kronolojisi" başlığı altında, ikincisi isə "Nadir Şah Devrine ait bir anonim Kronoloji" başlığı altında verilmişdir. İki mənbənin tərcüməsindən ibarət olan bu əsər 1974-cü ildə İstanbulda Ədəbiyyat fakültəsinin mətbəəsi tərəfindən çap edilmişdir. Bəhs olunan əsər XVIII əsrin ilk yarısında Azərbaycan Səfəvi imperiyasının düşdüyü çətin durumu, Əfqan işğallarını, Səfəvi sülaləsinin sona çatmasını, Əfşar-lar-Osmanlı-Rusiya münasibətlərinə dair iki ermənicə mənbənin birləşdirilməsini əhatə edir.

Əsərin birinci hissəsini təşkil edən Gilantezin xronologiyası 1863-cü ildə Tiflisdə çıxan ermənicə Grand məcmuəsində nəşr edilmiş, 1870-ci ildə isə K.Patkanov tərəfindən rus dilinə tərcümə edilmişdir. Kitabın ikinci bölümü Venesiyada Mixitarist Monastrında yerləşən və mikrofilmi çıxardılan ermənicə bir yazarın tərcüməsidir. Müəllifi naməlum olan bu əsər 150 səhifədən ibarət olub, 1731-1736-cı illəri əhatə edir. Bu əsər də Əfqan işğalı, Şah Sultan Hüseynin hakimiyyətdən getməsi, Şah Təhmasibin və Nadirin zamanında Osmanlı-İran (Əfşarlar) münasibətlərindən və hərblərindən bəhs edir. Əsərin müəllifləri türk deyil, ermənidir, lakin bəhs olunan əsər Türkiyədə çap edilib dövriyyəyə daxil edilmişdir.

Kitabın ikinci hissəsini əhatə edən "Nadir şah devrine ait anonim kronoloji"nin "Şah Tahmaspın Afqanların önünden kaçması Mitzkhetin Osmanlılar tarafından zaptı" yarımbaşlığında müəllif yazır: "Əfqanıstan sultanı Mahmudun 1721-ci ildə İran şahı Hüseynə qarşı həyata keçirdiyi hərbi yürüşdə paytaxt Şoşun (İsfahanın-red) zəbt edilməsindən və şahın öldürülməsindən sonra İran məmləkəti böyük bir sarsıntı içində çalxalanırdı. Şah hakimiyyətinin devrilməsindən sonra əyalət hakimləri bir-birinə qarşı çıxaraq məmləkəti xarabaya çevirdilər. Mühüm bir qismi İran hakimiyyəti altında olan erməni milləti də həyata keçirilən bir çox qəddarlıqların nəticəsində ən ağır məhrumiyyətlərə düçar oldular. Bir sözlə, xalq bir-biri ilə savaşan əyalət bəylərinin zərbələri və aclıq fəlakətindən başqa qonşu ərəblərin ləzgi-tatar sürülərinin basqınlarına məruz qaldı" [6, s.53]. Əsərin ilk cümlələrindən göründüyü kimi müəllif Səfəvi hakimiyyətindən sonra imperiyanın tənəzzülə məruz qaldığını etiraf etməklə yanaşı, erməni təəssübkeşliyi cildinə girərək, onların zülm və qəddarlıqla qarşılaşdıqlarını qeyd edir.

Sultan Hüseynin 18 yaşında olan oğlu II Təhmasibin əfqanlılara qarşı mübarizəsini müəllif belə şərh edir: "Öldürülən qardaşlarının aqibətindən xi-

las olan şahın Təhmasib adlı oğlu Əfqan sultanına qarşı döyüşərək İsfahanı və atasının taxtını xilas etmək üçün əsgər topladı. O, 33 minlik ordunu Faridun adlı bir komandirin əmrinə verərək Əfqan sultanına qarşı, özü isə Təbrizə doğru irəlilədi. Ordu Həmədana gəlib çatdığı vaxt əsgərlərin sayı 55 min nəfərə yüksəldi. Ordu buradan hərəkət edib İsfahan yaxınlığında qərargah qurdu" [6, s.55].

Anonim müəllif İrəvan ətrafında II Təhmasibin Osmanlı qoşunları ilə qarşılaşdığını, şəhərin Osmanlı qoşunları tərəfindən zəbt edildiyini təsvir edərək yazır ki, 1723-cü ilin dekabr ayında Osmanlı qoşunları Mitsxeti işğal etdilər. Elə bu vaxt Əfqan sultanının İsfahanı zəbt etməsi xəbəri yayıldı. Sarı Mustafa Paşa yaranmış vəziyyəti Sultan Əhmədə bildirərək Əfqan dəstələrinin İrəvana yürüş edəcəyini dedi. Buna görə də Padşah Köprülü ləqəbini daşıyan Abdullah Paşanı dərhal sərdar təyin edərək 75 min əsgərlə İrəvana göndərdi. Ərzurum şəhərinə gələn Abdullah Paşa qış mövsümü olduğundan bir ay orada qaldı və mart ayında oradan hərəkət edərək Arpaçay deyilən ərazidə qərargah qurdu. Türk komandanlarının İrəvan yaxınlığına gəldikləri xəbərini alan İrəvan xanı (çox güman ki, İrəvan hakimi – S.A.) Mihralı 12 min əsgərlə onlara qarşı çıxdı. Toqquşmada hər iki tərəfdən xeyli sayda insan yaralandı və öldürüldü. Osmanlılar 11 mindən çox iranlı əsgəri məhv etdilər, qalanları isə qaçaraq canlarını xilas edə bildi [6, s.56-57]. Müəllif daha sonra yazır: "İrəvan qalasının sülh yolu ilə təslim edilməsi üçün əvvəlcə Abdullah Paşa elçi göndərdi. Şəhərin mühafizəçisi Mehralı xan şəhərin təslim edilməsinə səlahiyyətinin çatmadığı cavabını verincə Osmanlı qoşunları şəhəri top atəşinə tutdular. Mehralı xan iranlılara savaşmaq əmri verdi. Şəhərin dirənişini, ordusunun azaldığını görən Abdullah Paşa hücumu dayandırdı və Padşaha xəbər göndərdi... Osmanlı qoşunları İrəvan qalasının mühasirəsini davam etdirərkən, Şah Təhmasib Xorasandan 6 min əsgərlə hərəkətə keçdi. O, bu qədər əsgərlə İrəvanın müdafiəsinə gəlməyə qorxurdu. İrəvan şəhəri 31 avqust 1724-cü ildə işğal edildi və Osmanlı ordusu noyabr ayına kimi orada qaldı" [6, s.59-65]. Müəllif bundan sonra Osmanlı qoşunlarının bir-birinin ardınca Həmədan, Təbriz şəhərlərini işğal etdiyini yazır.

Nadir Qulu xanın siyasi tarix səhnəsinə çıxmasını, onu qəhrəmanlığını, Osmanlı ilə toqquşmalarda qazandığı qələbələri müəllif "Şah Təhmasibin Nadir Qulu xanın yardımı ilə İsfahanı zəbt edərək atasının taxtına oturması" yarımbaşlığında işıqlandırır. Anonim müəllif yazır: "Şah Hüseynin oğlu şah Təhmasib əfqanlar tərəfindən zəbt edilmiş atasının taxtını geri almağa cəhd etdi. Elə bu məqsədlə də o, bir-birindən ayrı düşmüş bəylərə xəbər göndərdi. Lakin onlar bu təşəbbüsə qoşulmadı. Bununla belə, bir neçə il sonra Şah Təhmasib Təhmasib Qulu xan (Nadir – S.A) adını daşıyan ağıllı və cəsur sərkərdə olan bir sərdarın vasitəsilə bu işin öhdəsindən gəldi. Təhmasib Qulunun şöhrətini eşindən Şah Təhmasib 1728-ci ildə onu yanına çağıraraq əsgərlərinə baş komandan təyin etdi. Təhmasib Qulu xan: "Əmrinizi bir xahişimin yerinə yetirilməsi şərti ilə qəbul edirəm. Xahişim isə budur ki, dövlət işlərinə mənə tam səlahiyyət verəcək, sən yalnız taxtını şərəflə qoruyub hərb işlərinə qarışmayacaq və hər şeyi mənim ixtiyarıma verəcəksən" dedi. Təhmasib Qulu xanın sədaqətinə inanmış şah Təhmasib buna razı oldu [6, s.74].

Anonim müəllif Nadir şahın bundan sonra yüksəldiyini şərh edərək yazır: "Təhmasib Qulu əsgərlərini təmin etdi, itaət etməyən bəylərə qarşı mübarizəyə başladı. O, İsfahana qədər gələrək şəhərin yaxınlığında bir qərargah qurdu. Bunu xəbər alan Sultan Əşrəf bir çox əsgərlə onun qarşısına çıxdı. Lakin günlərlə davam edən savaşda məğlub olub geri çəkildilər. Beləliklə, İsfahan zəbt edildi və Şah Təhmasib atasının taxtına çıxdı" [6, s.75].

Müəllif daha sonra yazır: "Ordusu ilə irəliləyən Təhmasib Qulu xan Şiraza gəldi, lakin şəhərə girməyib kənarda qərargah qurdu. Təhmasib Qulu xanın gəldiyini bilən əfqanlar şəhərdən çıxdılar və şiddətli döyüş oldu. Əfqanlar məğlub olub qaçdılar. Təhmasib Qulu xan Şiraza aid işlərini bitirdikdən sonra bir çox əfqanın yerləşdiyi Yəzd üzərinə yürüş etdi. Əfqanlarla birlikdə Yəzd şəhərində olan Timur adlı bir Osmanlı paşası Təhmasib Qulu xanın gəldiyini eşidib əfqanlardan uzaqlaşdı. Şirazdan hərəkətə keçən Təhmasib Qulu xan Əfqanlarla toqquşdu və onların çoxunu qılıncdan keçirdi. Bu savaşdan yalnız qaça bilənlər xilas oldu. Təhmasib Qulu xan iyirmi dörd gün Yəzd şəhərində qaldıqdan sonra İsfahana döndü" [6, s.75].

Bu zəfərlərdən sonra Nadir Qulu xanın Osmanlı qoşunları ilə müharibəyə hazır olduğunu qeyd edən müəllif yazır: "O, Şah Təhmasibin yanına gedib Osmanlılara qarşı savaşmaq niyyətini bildirdi. Lakin Şah Təhmasib müharibə istəmədəyini bildirərək, bir az səbr etməsini, Osmanlı tərəfinə məktub yazdığını və hələ bir cavab verilmədiyini söylədi. Şah Təhma-

sibin Osmanlı sultanına göndərdiyi məktubda əfqan işğalları zamanı zəbt edilmiş İran torpaqlarının geri qaytarılması tələb edilirdi" [6, s.76].

Anonim müəllif yazır ki, Şah Təhmasib Osmanlı Paşasından işğal edilmiş əraziləri geri qaytarmasını tələb etdiyi vaxt Həmədanda olan Əbdürrəhman Paşa Təhmasib Qulu xanın Həmədana qarşı yürüşə başlamaq niyyətini bilib sultan Əhmədi xəbərdar etdi. Sultan Əhmədin verdiyi cavabda müqavimətə hazır olması, ona əlavə olaraq Muş bölgəsindən toplanmış qoşunla kömək ediləcəyini bildirilirdi [6, s.77].

Şah Təhmasibin Osmanlı ilə münasibətləri dinc yolla həll etmək niyyəti olduğunu qeyd edən anonim müəllif yazır ki, Osmanlı padşahı İran (Səfəvi – S.A) elçisi gəldikdən sonra onu həbs etdirdi və hərb hazırlıqları bitənədək cavabı vermədi. Həmədan paşası Əbdürrəhman paşa padşaha təkrar müraciət edib İran ordusuna qarşı əsgərlərinin kifayət etmədiyini bildirdi. Bunu nəzərə alan padşah Urfa paşasına Həmədana əsgər göndərmək əmri verdi. Urfa paşası kürdlərdən topladığı 7 min nəfərlik ordunu Həmədana göndərdi. Bu əsgərlər Həmədana gələrkən Əbdürrəhman Paşa onlara Nəhavənd adlı yerdə dayanmaq əmri verdi. Osmanlı padşahının elçini həbs etdiyini bilən Təhmasib Qulu xan Osmanlı dövlətinin sülhdən imtina etdiyinə əmin olub Nəhavəndə yaxın olan Ulukerdə gəldi. 29 gün burada qalan Təhmasib Qulu xan Əbdürrəhman Paşaya xəbər göndərib əfqan yürüşləri zamanı ələ keçirdikləri Həmədan şəhərini sülhlə geri verilməsini tələb etdi. Əbdürrəhman paşa 10 gün səbr etməsini söylədi. Onun cavabının səbəbi Osmanlı sultanından sonra ikinci şəxs olan Əli Paşaya gizli məktub yazması idi ki, Əli Paşa da Təhmasib Qulu xanı bir müddət dayandırmaq istəyi idi [6, s.78].

Müəllifin qeydlərindən məlum olur ki, Əbdürrəhman Paşanın çağırışı ilə ona Teymur paşanın rəhbərliyi ilə 6 minlik qoşun köməyə gəlsə də, bunun heç bir faydası olmadı. Təhmasib Qulu xanın 12 minlik əsgəri hissələri 3 saat ərzində Osmanlı qoşunlarını darmadağın edib Həmədan şəhərinə daxil oldu. Əbdürrəhman Paşa hərəmini, oğul və qızlarını götürüb 45 nəfərlik əsgəri heyəti ilə Həmədandan uzaqlaşdı. Təhmasib Qulu xan Həmədanın tərk edildiyini görüb şəhərə daxil oldu. Şəhərdə qalan Osmanlı qoşunlarını öldürdü [6, s.79].

Muğan qurultayına qədər Nadir şah Əfşarın ordu komandanı kimi Osmanlı dövləti üzərində böyük hərbi üstünlüklər qazandığını və bunu onun bacarıqlı və cəsarətli sərkərdə keyfiyyəti ilə izah edən anonim tarixçi daha sonra yazır: "Qulu (Nadir xan– S.A) bir aya qədər Həmədanda qaldıqdan sonra Sunuş şəhərini zəbt etmək üçün 15 minlik əsgəri qüvvə ilə hücuma keçdi. Şəhəri ələ keçirən Nadir Qulu xan oradan Təbriz üzərinə yürüş etdi. Nadir Qulu xan Təbrizə altı gün məsafədə qərargah qurub, orada 3 gün qaldı. Osmanlı qoşunları ilə qarşılaşmada Nadir Qulu xanın 18 minlik əsgəri döyüş meydanına çıxdı. Osmanlıların çoxu əsir düşdü, Teymur İrəvana doğru qaçdı. Təbrizi zəbt edən Nadir Qulu xan şəhərdə ələ keçən Osmanlı dəstələrini qılıncdan keçirdi" [6, s.81]. Maraqlıdır ki, müəllif Əfşarlarla-Osmanlılar arasında baş verən müharibələri şərh edərkən, döyüşlərin tarixi haqqında heç bir məlumat vermir.

Anonim müəllif bəhs olunan əsərinin "Qulu xan Şahı endirib hakimiyyəti əlinə alır" adlı yarımbaşlığında yazır: "Şah Təhmasibin Osmanlılardan qorxaraq Həmədanı güzəştə getdiyini bilən Təhmasib Qulu xan son dərəcə hiddətləndi və hakimiyyəti olduğu kimi əlinə alıb şahı həbs etmək üçün bir plan qurdu. Təhmasib Qulu xan Şah Təhmasibin qorxaq və düşüncəsiz bir adam olduğunu və etdiklərinin məmləkətin ziyanına olduğunu bilib ordu ilə bərabər İsfahana hərəkət etdi. 48 min atlı və 6 min piyada əsgərin başına keçən Təhmasib Qulu xan Xorasandan hərəkət edərək İsfahana gəldi, lakin şəhərə daxil olmayıb bir az kənarda, Arşavabad deyilən ərazidə qərargah qurdu. Elə bu vaxt şahın adamları onu xəbərdar edib, Təhmasib Qulu xanın yaxşı niyyətlə gəlmədiyi xəbərini verdilər. Ancaq şah buna inanmayıb, əvvəlcə tərəddüd etdi. Bir neçə gündən sonra 54 min nəfərlik qoşun toplayıb şəhəri müdafiə etməyə hazır dayandı. Bunu görən Nadir Qulu xan atından enərək tabeliyindəki bir neçə atlı piyada ilə gəlib şahın hüzurunda baş əydi və qarşısında səcdə edərək dedi: "Möhtərəm şah həzrətləri, niyə belə açıq havada dayanmısınız? Olmaya haqqımda sizə yalan məlumatlar verilib və mənim sədaqətimdən şübhəmi edirsiniz? Bir daha əmin olun ki, bunlar düşmənlərin mənə qarşı iftiralarıdır. Belə ki, əvvəlki dövrdə rəhbərimə necə sədaqətli idimsə, indi də həmin sədaqətin arxasında dayanmışam, əmrlərinizi icra etməyə hər an hazıram" [6, s.87]. Müəllif yazır ki, Nadir Qulu xan belə şirin sözlərlə şahı şəhərə dönməyə razı sala bildi. Beləliklə, Nadir Qulu xan artıq söz sahibinə çevrilmişdi.

Nadir Qulu xan Şahı Xorasana göndərdikdən sonra özü İsfahanda oturub dövləti idarə etməyə başladı.

Bir neçə gündən sonra bütün zabit və komandirləri hüzuruna çağırıb dedi: "Sizi nə üçün çağırdığımı bilirsinizmi? Bilmirik, fəqət rəhbərimizin bütün əmrlərinə hazırıq" cavabını verdilər. Bundan sonra Nadir Qulu xan: "Sizi çağırmağımın səbəbi budur ki, Xorasana yolladığım şahın oğlunu taxta çıxacağam. İran (Səfəvi – S.A) dövlətinin pullarını onun adına kəsin, bütün dövlət işləri onun adına edilsin, onun adına savaşın, bir sözlə onun ulduzu çox parlaqdır. Sərxoş və ağılsız bir adam olan atası şah Təhmasib məmləkəti idarə və müdafiə etməkdə acizdir. Ona görə də onu Xorasana yolladım" [6, s.87].

Məlumatlardan göründüyü kimi Nadir xan faktiki olaraq Şah Təhmasibi hakimiyyətdən uzaqlaşdıraraq onun altı aylıq oğlunu hakimiyyətə gətirib, atasının yerinə şah elan etdisə də, faktiki olaraq hakimiyyəti özü əlində cəmləşdirdi.

Anonim müəllif Nadir Qulu xan-Osmanlı müharibələrini "Bağdada qarşı yürüş", "Bağdad mühasirəsi" başlıqları altında qeyd edərək yazır: "Təhmasib Qulu xan 6 gün Qazovda qaldıqdan sonra Bağdad yolunu tutdu. O, əvvəlcə Bağdad üzərinə yürümək niyyətində idi, sonra fikrini dəyişərək Kərkük üzərinə yürüş etdi. Təhmasib Qulu xanın dəyişik istiqamətlərdə yürüş etməkdə məqsədi Osmanlı qoşunlarını savaşa təhrik etmək idi. Bir neçə gündən sonra Təhmasib Qulu xan Bağdada qarşı yürüş etdi. Bağdadı mühasirəyə alan Təhmasib Qulu xan əlli beş gün şəhəri mühasirədə saxladı. Şəhərin mühasirəsi 9 ay davam etdikdən sonra Osmanlı padşahı Sultan Mahmud Topal Osman Paşanı 250 minlik əsgərlə Qulu xana qarşı göndərdi. Bundan xəbər tutan Nadir Qulu xan Əhməd Paşaya qalanı təslim etmək üçün sülh təklif etdi. Əhməd Paşa qalanı niyə istəyirsən? Osmanlı əsgərləri ilə döyüş və qalanı al" cavabı verərək sülh təklifindən imtina etdi [6, s.92-93]. Məlumat üçün qeyd edək ki, Nadir şah hələ taxta çıxmamışdan öncə, 1732-1733-cü illərdə birinci Bağdad yürüşünə çıxaraq, Osmanlı orduları ilə qarşılaşmışdı. Bu döyüşlərin gedişində əvvəlcə Nadir Qulu xan məğlub olub geri çəkilsə də, 1733-cü il Dücum, sonra isə Kərkük müharibəsində Osmanlı qoşunlarının müqavimətini qıraraq Bağdad üzərində əhəmiyyətli üstünlük qazanmışdı.

Nadir şah Əfşarın Osmanlı üzərində növbəti qələbəsini müəllif "İrəvan, Gəncə, Şirvan və Şamaxının zəbt edilməsi" başlığı altında vermişdir. Müəllif Nadirin Osmanlı üzərində yenidən qələbə çalaraq ərazi bütövlüyünə doğru uğurlu addım atdığını yazır: "Qulu xan Moskva elçilərini yola saldıqdan sonra ordusu ilə bərabər İrəvan yaylağına gəldi. İrəvanın sahibi olan Osmanlılar döyüşə girməyib geri çəkildilər. Nadir buradan ordusu ilə Gəncəyə doğru yollandı. Təhmasib Qulu xan Gəncədən sonra Şamaxı, Şirvan üzərinə yürüş edərək bu şəhərləri zəbt etdi" [6, s.100-101]. Qeyd edək ki, Nadir şah Əfşarın İrəvan, Gəncə, Şamaxı yürüşləri 1734-cü ilə təsadüf edir. Bununla da, Nadir şah Əfşar təkcə rusları Xəzərsahili torpaqlardan deyil, həm Osmanlı qoşunlarını Azərbaycan hüdudlarından kənarlaşdıra bildi.

Anonim müəllif əsərinin sonuncu hissəsində Nadir Qulu xanın taxta çıxması, Osmanlı imperiyası ilə əldə edilən sülhdən bəhs edərək yazır: "Osmanlılar padşahları Sultan Əhmədə qarşı üsyan edib taxtdan saldıqdan sonra Sultan Mahmud taxta çıxdı. Yeni Padşah Köprülü Abdulla Paşanı sərdar təyin edərək 300 min nəfərlik əsgərlə İrana qarşı göndərdi. Abdulla Paşanın Qarsa gəldiyini xəbər alan Təhmasib Qulu xan hazırladığı 53 min nəfərlik zirehli süvari və 12 min nəfərlik piyada qoşunla İrəvandan Eçmiədzinə qədər olan sahəni tutdu. Baş verən toqquşmada Osmanlılar məğlub oldular və Təhmasib Qulu xan qaçanları Mankerdə və Həsənqalaya kimi qovladı. Abdulla Paşa ələ keçirilib Təhmasib Qulu xanın yanına gətirildi. Xan onun öldürülməsini və məzarı üzərində hadisəni əks etdirən bir türbə qoyulmasını əmr etdi. İrana dönən Təhmasib Qulu xan İsfahana getməyib Damğa deyilən yerdə dayandı və orada qərargah qurdu. Xan bütün iranlı üməra və ətrafını oraya çağırdı, hamısı oraya toplandıqdan sonra onlar xitabən: "Sizi çağırmağımın səbəbi budur. Uzun illərdən bəri sizin üçün qılıncı qaldırdım, düşmənləriniz olan əfqanları, Osmanlıları və rusları qovdum, İrana aid bütün yerləri onların işğalından xilas etdim. İndi isə sizə bir hökmdarınızı taxta çıxarmaq vəzifəsi qalır" [6, s.105]. Buna etiraz edənlər olsa da, günlərcə davam edən şənliklərdən sonra Nadir Qulu xanı taxta çıxardılar [6, s.106].

Beləliklə, "Osmanlı-İran-Rus ilişkilerine ait iki kaynak" əsərinin qısa məzmunundan da göründüyü kimi anonim müəllif Nadir şah dövrü ilə bir çox hallarda dolğun məlumatlar versə də, demək olar ki, tarixləri göstərmir, təsvirçiliklə kifayətlənməli olur. Əsərdə Nadir xan əksəriyyətlə Qulu xan adlandırılmışdır. Müəllif digər əksər türk müəllifləri kimi Əfşarlar sülaləsinin hakimiyyətini, imperiyanın uğurlarını İran adı altında verir, bir çox yerdə isə erməni təəssübkeşliyindən çıxış edir. Ümumilikdə isə əsər

bizə Nadir Əfşar Osmanlı müharibələrinin öyrənilməsində yardımçı olur.

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Adıgüzel A., Yıldırım A. I. Mahmud dönemi (1730-1754) Osmanlı-İran ilişkileri // Eskişehir Osmangazi Universitesi Fakültesi dergisi, sayı VII (2017), c. 4, s. 59-96.*
2. *Ateş A. Nadir Şah döneminde Osmanlı-İran siyasi ilişkileri (1720-1747). İstanbul: Cizgi Kitab evi, 2022, 264 s.*
3. *Efendi S. Risaletüt-Tarihi Nadir şah. Hazırlayan M.Y.Ertaş. İstanbul: Kitabevi, 2012*
4. *Karadeniz Y. İran tarihi (1700-1925). İstanbul: Selenge Yayınları, 2012, 576 s.*
5. *Kurtaran U. Yeni Kaynakların ışığında Sultan I. Mahmud dönemi Osmanlı-İran ilişkileri (1731-1747) // History Studies, vol. 3, 2011, s. 178-213.*
6. *Osmanlı-İran-Rus ilişkilerine ait iki kaynak. Tercüme eden ve yayına hazırlayan Hrand D.Andreasyan. İstanbul: Edebiyat Fakültesi Matbaası, 1974.*


## XÜLASƏ


Qafqaz hər zaman qonşu dövlətlərin diqqət mərkəzində olan bir ərazi olmuşdur. Bunun ən mühüm səbəblərindən biri onun coğrafi mövqeyi idi. Nadir xan Əfşar siyasi səhnəyə çıxdığı gündən Osmanlı dövləti ilə müharibələr aparmışdı. O, Səfəvilərin uzunmüddətdə edə bilmədiklərini edib həm osmanlıları, həm rusları Qafqazdan qovub çıxarmışdı. Nadir Əfşar şah olduqdan sonra isə Osmanlılarla dinc münasibətlər yaratmaq üçün əlindən gələni etmişdir.



**Açar sözlər:** *mənbə, tarixşünaslıq, Nadir şah Əfşar, Sultan I Mahmud, Osmanlı, savaş*


## SUMMARY


The Caucasus has always been an area in the center of attention of neighboring states. One of the most important reasons for this was its geographical location. Nadir Khan Afshar fought wars with the Ottoman state from the day he entered the political scene. He did what the Safavids could not do for a long time and expelled both the Ottomans and the Russians from the Caucasus. After Nadir Afshar became Shah, he did his best to create peaceful relations with the Ottomans.



**Keywords:** *source, historiography, Nadir shah Afshar, Sultan Mahmud I, Ottoman, war*


## РЕЗЮМЕ


Кавказ всегда был в центре внимания соседних государств. Одной из важнейших причин этого было его географическое положение. Надир Хан Афшар вел войны с Османским государством с того дня, как вышел на политическую сцену. Он сделал то, что долгое время не могли сделать Сефевиды, и изгнал с Кавказа и османов, и русских. После того как Надир Афшар стал шахом, он сделал все возможное для установления мирных отношений с османами.



**Ключевые слова:** *источник, историография, Надир Шах Афшар, Султан Махмуд I, Османская империя, война*